# "Dini və mənəvi dəyərlər" mövzusunda tədbir keçirilmişdir

Avqustun 11-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini və mənəvi dəyərlər" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, ziyalılar, gənclər və din xadimləri iştirak etmişlər.

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoymuş, ulu öndərin xatirəsini ehtiramla yad etmişlər.

Tədbirin əvvəlində "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun ssenarisi əsasında çəkilmiş "Ruhlar şəhərinin sakinləri" filminin təqdimatı olmuşdur.

Bəxtiyar Sadıqov çıxışında demişdir ki, bu ekran əsəri "ruhlar şəhəri" adlanan Ağdamın faciəsinə, Qarabağın ağrı-acılarına həsr olunmuşdur. Filmdə şərti olaraq dörd surət var. Bunlar Ağdam şəhərini tərk etməyən ruhların, Ağdamdan kənarda doğulan uşaqların, doğma yurd-yuvalarına qayıtmaq ümidi ilə yaşayan qocaların, torpaqlarımızı işğaldan azad etmək əzmində olan əsgərlərimizin surətləridir.



Erməni vandallarının vəhşiliklərinin ifşasına, məcburi köçkünlərin yurd həsrətinə həsr edilən filmin rejissoru Kəmalə Mirzəyeva, redaktoru İxtiyar Hüseynli, layihə rəhbəri Bəxtiyar Qaracadır. Mətni əməkdar artist Azad Şükürov səsləndirib.

Sonra Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov çıxış edərək xalqımızın əsrlər boyu formalaşdırdığı, zamanın çətin sınaqlarından çıxan milli-mənəvi dəyərlərdən və ölkəmizdəki bütün dünyaya nümunə olan mövcud tolerantlıq mühitindən söz açmışdır.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı xalqımızın malik olduğu milli-mənəvi dəyərlərdən, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasından, ölkəmizdə ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətdən danışmış, dövlət müstəqilliyinə qovuşduqdan sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının yeni məzmun kəsb etdiyini vurğulamışdır. Natiq qeyd etmişdir ki, dövlət-din münasibətləri indi yeni müstəvidə inkişaf edir. Ölkəmizdə məscidlərlə yanaşı, kilsə və sinaqoqlar da inşa olunur, bəziləri təmir edilir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin bu gün yüksək səviyyədə davam etdiyini diqqətə çatdıran Mübariz Qurbanlı Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə işinə və milli-mənəvi dəyərlərin təbliğini genişləndirməyə böyük önəm verdiyini, bu məqsədlə dini icmalara maliyyə yardımları ayrıldığını bildirmişdir.

Mübariz Qurbanlı dünyada din pərdəsi altında aparılan münaqişələrdən danışarkən qeyd etmişdir ki, islam dininin genişlənməsindən narahat olan qüvvələr onun bütövlüyünü pozmağa, parçalamağa çalışırlar. Bu məqsədlə yaradılan radikal dini qruplar xüsusi missiya həyata keçirirlər. Ölkəmizdə belə qüvvələrin təşəkkül tapması üçün heç bir əsasın olmadığını, dini radikalizmə qarşı qanun çərçivəsində mübarizə aparıldığını qeyd edən natiq bildirmişdir ki, bu mübarizədə ən səmərəli vasitə maarifləndirmədir. Bu işdə hüquq-mühafizə orqanları ilə yanaşı, din xadimləri, müəllimlər, bütövlükdə ictimaiyyət fəallıq göstərməlidir.

Tədbirdə Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov, rayonun axundu Barat Bağırov və başqaları mövzu ilə bağlı çıxış edib fikirlərini bildirmişlər.

Tədbirdən sonra qonaqlar Xındırıstan kənd məscidində, Çəmənli kəndində Seyid Lazım ağa ziyarətgahında olmuş, dindarlarla görüşmüşlər. Məscid və ziyarətgaha Qurani-Kərim və digər dini kitablar hədiyyə edilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***